SUVERENLİYİN BƏRPASI

# Dünyaya səs salan Zəfərimiz

**2020-cu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verildi. Azərbaycan xalqı 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın bu əmrini gözləyirdi.**

"Dəmir yumruq" əməliyyatını həyata keçirən ordumuz 44 gün ərzində hər gün irəli getdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad etdi. "Öldü var, döndü yoxdur!" şüarı ilə döyüşlərə atılan Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu: işğala son qoymaq, ölkəsinin ərazi bütövlüyünün bərpa etmək. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz məqsədinə çatdı.

Bununla bütün dünya Azərbaycan dövlətinin, xalqının və ordusunun şanlı Qələbəsinin şahidi oldu. Bu Qələbə regionun siyasi xəritəsini dəyişdi, postsovet məkanında "dondurulmuş münaqişə" anlayışını iflasa uğratdı. Yeri gəlmişkən, Qarabağ münaqişəsinin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunmuş ATƏM-in (sonradan ATƏT) Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi kağız üzərində qalmış və icra olunmamışdır.

2020-ci il noyabrın 8-də tarixi Şuşa əməliyyatı isə Prezident İlham Əliyevin Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda çıxışında dediyi kimi, düşmənin belini qırdı. Həmin gün xalqımızın qüdrətinin və milli qürurunun təntənəsinə çevrilən bu möhtəşəm Qələbə Prezident İlham Əliyevin Sərəncamı ilə əbədiləşdirildi. Belə ki, Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan olundu. 2021-ci il yanvarın 14-də isə Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli Azərbaycan Bayrağını ucaltdı. 2023-cü il iyulun 31-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş .əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, Şuşa şəhərinin işğaldan azad olunduğu noyabrın 8-i Şuşa Şəhəri Günü kimi qeyd olunur.



Xatırladaq ki, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbə şərəfinə Zəfər paradı keçirildi. 2023-cü il noyabrın 8-də isə Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad düzənləndi. Dünən isə paytaxtın Azadlıq meydanında Vətən müharibəsində möhtəşəm Qələbənin 5-ci ildönümünə həsr edilmiş parad keçirildi.

Məhz Şuşanın azadlığa qovuşmasından sonra Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. 44 günlük Vətən müharibəsi ölkəmiz üçün həm döyüş meydanında, həm də diplomatik masada tarixi qələbə ilə nəticələndi.

2023-cü ildə 23 saatlıq antiterror tədbirləri nəticəsində Qələbənin tamlığı, bütövlüyü, ölkənin tam suverenliyi təmin edildi. Antiterror tədbirlərindən sonra Ermənistan tərəfindən hələ 1990-cı illərin əvvəllərində işğal edilmiş Qazax rayonunun 4 kəndi Azərbaycana qaytarıldı.

Yeri gəlmişkən, hazırda işğaldan azad edilmiş bütün ərazilərimizdə Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixində təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən dünyanı heyrətə gətirən abadlıq, quruculuq işləri davam etdirilir. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda çıxışı zamanı bildirdiyi kimi, azad edilmiş ərazilərdə yenidənqurmanın inanılmaz sürəti tam fenomenal xarakter daşıyır.

Xatırladaq ki, azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanıb, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunub. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub. Artıq hazırda 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır. Onu da qeyd edək ki, azad edilmiş bütün şəhərlərdə tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə İşğal və Zəfər muzeyləri də inşa edilir. Bu mənada demək olar ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Yeri gəlmişkən qeyd edək ki, dünən paytaxtda Zəfər muzeyinin də açılışı keçirilib.

Azərbaycan torpaqlarının azadlığı, ərazi bütövlüyü və suverenliyinin bərpa olunması, ədalətin bərqərar olması uğrunda xalqımızın apardığı tarixi mübarizənin simvoluna çevrilmiş 8 Noyabr - Zəfər Günü ölkəmizdə hər il təntənəli şəkildə qeyd edilməkdədir. 8 Noyabr Zəfəri qəhrəmanlıq və sarsılmaz iradənin nümunəsi kimi tariximizdə öz əvəzolunmaz yerini tutub və gələcək nəsillərə örnək olacaq. Bu Zəfər gələcək nəsillər üçün milli ləyaqət, güc və ilham mənbəyi olaraq əbədi qalacaq.

Şübhəsiz, Zəfərimizin memarı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Məhz Müzəffər Ali Baş Komandanın hərbi-siyasi qətiyyəti, dönməz iradəsi, peşəkar sərkərdəlik məharəti xalqımıza misilsiz Zəfər yaşatdı.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***